*Atalar coşğun çay, analar dəniz,*
*Onların qanından yaranmışıq biz.*
*Ata da əzizdi, ana da əziz,*
*Atasız, anasız heç kəs olmasın.*



**BUDAQ TƏHMƏZ**
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***Məmməd Araz mükafatı laureatı***

## MƏNİM DƏ ANAM OLUBDU

Mən ana görmədim körpəliyimdən
Bir zaman mənim də anam olubdu.
Köçdü bu dünyadan, ayrıldı məndən,
Bir zaman mənim də anam olubdu.

Deyirlər, istidi ana qucağı,
Bu ayrılıq oldu mənə göz dağı.
Sevib, oxşamadı Körpə Budağı,
Bir zaman mənim də anam olubdu.

Mənə yetimliyim yaman dərd oldu,
Mən ana görəndə "gözüm dörd" oldu.
İllər ağır gəldi, illər sərt oldu,
Bir zaman mənim də anam olubdu.

Anamdan yadigar şəkil qalıbdı,
Baxıram şəklinə, gözüm dolubdu.
Şəkil də saralıb, kağız solubdu,
Bir zaman mənim də anam olubdu.

Yadıma düşəndə kövrəlirəm mən,
Kağıza yaş süzür kirpiklərimdən.
Bəzən öz-özümə deyirəm hərdən:
"Bir zaman mənim də anam olubdu!"

***Bakı, 15.04.2020***

## SÖZÜM VAR MƏNİM

Vətən göylərində doğan Günəşəm,
Yanardağda yanan odam, atəşəm.
Gecə də, gündüz də yazmaqdı peşəm,
Hələ deyilməmiş sözüm var mənim.

Yaralı Vətəndi sinəmdə ürək,
Dövran belə qalmaz, zaman gələcək.
Qələmi süngüyə döndərəm gərək,
Hələ deyilməmiş sözüm var mənim.

Yolumu gözləyir döyüş meydanı,
Babəkim, Koroğlum, bəs Nəbim hanı?
Gərək selə dönə düşmənin qanı,
Hələ deyilməmiş sözüm var mənim.

Gəzib dolandıqca Vətən torpağın,
Düşmənə göstərəm gərək göz dağın.
Sancacam Şuşaya vətən bayrağın,
Hələ deyilməmiş sözüm var mənim.

Vətən tapdaq altda bölük-bölükdü,
Yanında suçluyam, çiynimdə yükdü.
Mən Türkün oğluyam, səbrim böyükdü,
Hələ deyilməmiş sözüm var mənim.

***Bakı, 05.02.2020***

## DÜNYANIN DƏRDLƏRİ

Allah, yumruq boyda ürək nəyimiş,
Sızlayan kamanmı, yoxsa neyimiş?
Köksümün altında dərddən böyümüş,
Dünyanın dərdləri içimdən keçir.

Mənim ürəyimdə nələr var, nələr,
Şəhid oğullarçün analar mələr.
Bu haray içimdə köksümü dələr,
Dünyanın dərdləri içimdən keçir.

Hələ sağalmayıb o tayın dərdi,
Sinəmdə Qarabağ, Göyçə göyərdi.
Niyə seçəmmirik mərdi, namərdi?
Dünyanın dərdləri içimdən keçir.





Dolaşır dünyanı ölüm havası,
Artır günü-gündən şeytan yuvası.
Qurtarmır dünyanın torpaq davası,
Dünyanın dərdləri içimdən keçir.

Çağlayan Samuram, qədim Dərbəndəm,
Bölünmüş torpağam, dağılmış kəndəm.
Səbir kasam dolub, bir himə bəndəm,
Dünyanın dərdləri içimdən keçir.

***Bakı, 15.03.2020***

## VURĞUNUN YADİGARI

*İstedadlı şair Ələddin İncəliyə*

Eşitmişdim adını, görməmişdim üzünü,
İncədərədən gəldi misraların düzümü.
Ərməğan göndərirəm sənə ürək sözümü,
Sən Qazax torpağının qələm tutan əlisən,
Vurğunun yadigarı Ələddin İncəlisən.

İncədir sözlərin İncənin gülləritək,
Hər kəlmən, hər bir sözün təzə açan bir çiçək.
Arzum budur səninlə kükrəyib coşsun ürək,
Sən Qazax torpağının qələm tutan əlisən,
Vurğunun yadigarı Ələddin İncəlisən.

Vurğuntək çox sevirsən sən də ala ceyranı,
Üfüqdə bənzətmisən dostum, xala ceyranı.
Sevib əzizləyirsən körpə bala ceyranı,
Sən Qazax torpağının qələm tutan əlisən,
Vurğunun yadigarı Ələddin İncəlisən.

Damcılı bulağının nəğməsi şeirindədir,
Hikmətli kəlmələrin hələ çox dərindədir.
Hər nədən yazırsan yaz, hamısı yerindədir,
Sən Qazax torpağının qələm tutan əlisən,
Vurğunun yadigarı Ələddin İncəlisən.

Şeirinə gətirmisən sən Cəlalın "cürəsin",
Misranla tərpədirsən bütün bu Yer kürəsin.
Göyəzəndən ucalır dünyaya haray səsin,
Sən Qazax torpağının qələm tutan əlisən,
Vurğunun yadigarı Ələddin İncəlisən.

Mən də Budaq Təhməzəm, nakam Cavid elindən,
Zövq alıram yurdumun çiçəyindən, gülündən.
Qardaşım, gəl yapışım qələm tutan əlindən,
Sən Qazax torpağının qələm tutan əlisən,
Vurğunun yadigarı Ələddin İncəlisən.

## QARABAĞIN BAHARI

İlham alıb vətənin çiçəyindən, gülündən,
Ucaldıram səsimi Xəzərin sahilindən.
Döyüşə hazır olaq, ey vətən oğulları,
Qəlbimizdən siləyin daha qəmi, qübarı.

Baş komandan əmrinə biz hazır dayanağın,
Hər qarış torpaq üçün al-qana boyanağın.
Titrəsin səsimizdən dərələr, dağlar, düzlər,
Kükrəyin, şahə qalxsın dalğalanan dənizlər.

Ey türk oğlu, vüqarla uca tut başını sən,
Şığıyaq ildırımtək düşmənin sırasına.
Qəhrəman oğullarla fəxr eyləsin bu vətən.
Qanımız məlhəm olsun vətənin yarasına.

Səbir kasamız daşıb, əmr ver, baş komandan,
Gözləyirik əmrini alacağıq qana-qan.
Şəhidlərin ruhuna gəlin biz and içəyin,
Bu ana torpaq üçün canımızdan keçəyin.

Ayağa qalxmalıyıq bu gün bizim hamımız,
Əyilməzdi xalqımın əzəməti, vüqarı.
Yerdə qalmayacaqdı axan şəhid qanımız,
Qayıdacaq yerinə Qarabağın baharı.

***10.05.2020***
***Bakı - Yasamal***

## ŞAHBUZUM

*Batabatda yazılan şeir*

Gəldim bu dağlara, xətri qalmasın,
Gördüm zirvələrin mən ağ çalmasın.
Açılan güllərin bir də solmasın,
Gətirdim hüsnünü dilə, Şahbuzum,
Batıbsan çiçəyə, gülə, Şahbuzum.

Təbiət toxuyur güllərdən xalı,
Gözəllik bürüyür yamacı, yalı.
Baxanda dəyişir insanın halı,
Gətirdim hüsnünü dilə, Şahbuzum,
Batıbsan çiçəyə, gülə, Şahbuzum.

"Keçəldağ" yaranıb qüdrətdən qala,
Qanlı gölü görüb, getdim xəyala.
"Çınqıllı" az qaldı ağlımı ala,
Gətirdim hüsnünü dilə, Şahbuzum,
Batıbsan çiçəyə, gülə, Şahbuzum.

Salvartı solundu, Batabat sağın,
"Zorbulaq"dan əskik olmaz qonağın,
Ellərə sovqatdı balın, qaymağın,
Gətirdim hüsnünü dilə, Şahbuzum,
Batıbsan çiçəyə, gülə, Şahbuzum.

Budaq Təhməz gözəlliyin heyranı,
Qəlbini ovladı Şahbuz ceyranı.
Badamlın dolanır bütün dünyanı,
Gətirdim hüsnünü dilə, Şahbuzum,
Batıbsan çiçəyə, gülə, Şahbuzum.

*13.07.2003*

## ŞEİRİM SİZƏ ƏMANƏTDİ

Oxuyun şeirimi, qiymətin verin,
Siz könül bağımdan gül-çiçək dərin.
Sevgi məktubunda yara göndərin.
İstəmirəm mən nə qızıl, nə də zər
Şeirim sizə əmanətdir, ay ellər.

Ömrümün illəri arxada qaldı,
Bu gün keçən günüm sabah xəyaldı.
İllər gəncliyimi əlimdən aldı,
İstəmirəm mən nə qızıl, nə də zər
Şeirim sizə əmanətdir, ay ellər.

Mən də gördüm bu dünyanın dadını,
Çox yoxladım yaxınını, yadını,
Yada salın siz də şair adını,
İstəmirəm mən nə qızıl, nə də zər,
Şeirim sizə əmanətdir, ay ellər.

Kim dağıdar Tanrı quran qurğunu,
Çox dolandım oldum yollar yorğunu.
Salın yada ömrü gödək vurğunu,
İstəmirəm mən nə qızıl, nə də zər,
Şeirim sizə əmanətdir, ay ellər.

*Bakı, 12.01. 2020*

## RÜBAİLƏR

İnsan yaranandan nəfsinə quldu,
İnsanı yolundan azdıran puldu.
Dostdu hər insanın varı, dövləti,
Dostu olmayanlar qəlbən yoxsuldu.

***

Nəfsin saxlamadı o, Həvva ana,
Atdılar cənnətdən onu cahana.
Boydan aşağıdır nəfis, deyərlər,
Bəla gətirəndi nəfis insana.

***

Məhəbbət bəladı giriftar olma,
Məcnuntək vurulub səhrada qalma.
Onun da həddi var, düşün dərindən,
Canana can verib çox da can alma.

***

Həmsöhbətin olsa qəlbinə həmdəm,
Səndən uzaq olar qüssə, kədər, qəm.
Özünə layiq bir həmsöhbət ara,
Zövq al danışanda şirin sözündən.

***

Bir gün yolum düşdü qəbiristana,
Baxdım qəbirlərə mən yana-yana.
Düşündüm dərindən, heçdir bu dünya,
Kaş, heç gəlməyəydim mən bu cahana.

***

Özündən kənar et qəmi, kədəri,
Gülüşlə qarşıla gələn səhəri.
Ötən günlərinə heyifsilənmə,
Nə qədər yalvarsan, qaytarmaz geri.

***

Məclisdə heç kəsin kəsmə sözünü,
Yüngül tanıdarsan onda özünü.
Gözlə, o sözünü çatdırsın sona,
Ondan sonra söylə sən öz sözünü.

***

Şərab güldürəndi, həm də ağladan,
İçib həddin aşsan töküləcək qan.
Çalış ki, içəndə aşma həddini,
Başqalar əlində qalmasın yaxan.

***

Məndən sonra doğar günəş də, ay da,
Gələcək bahar da, gələcək yay da.
Mən ki, bu dünyadan köçüb getmişəm,
Bütün bu işlərdən mənə nə fayda.

***

Gedirdim yol üstə gördüm bir qarı,
Üzünü bürümüş qəm qırışları.
Soruşdum: - Dünyadan razısanmı sən?
Dedi: - Bu dünyanın yox etibarı.

***

Əlində əsası gördüm bir kişi,
Ağarıb saçları, tökülüb dişi,
Qocadan soruşdum:- Gənclik hardadı?
Söylədi, dünyanın belədi işi.

***

"Dünya bir quyruqdu", deyib atalar,
Bu hikmətli sözdə böyük məna var.
Çalış bu dünyanın dilini öyrən,
Yumruq yox, həmişə quyruq yeyərsən.